BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2006

# M.S.ORDUBADİNİN ÇAP OLUNMAMIŞ DRAMLARI
## (II məqalə)

B.H.ƏSGƏROV*

"*İntizar çəkənlər*" komediyası M.S.Ordubadinin 1943-cü ildə yazılmış, çap olunmamış, əlyazması formasında RƏF-də saxlanılan nisbətən iri həcmli dram əsəridir. İlk növbədə onu qeyd etmək lazımdır ki, dramaturqun bu komediya əsəri "Quluş bəy Kazımiç"in oxşarı və demək olar ki, davamıdır. Çünki əsərin birinci şəxsi Quluş bəy başda olmaqla pyesin əksər obrazları; Quluş bəyin arvadı Tərlan, qolçomaqlar Məşədi Səban, Kəblə Hüseynəli, Heybətqulu və s. ədibin "Quluş bəy Kazımiç" komediyasında eyni ilə iştirak edirlər. Quluş bəyin xarakteri, onun mənafeyi, milli əxlaqa zidd olan hərəkətləri, tamahkarlığı, hiyləgərliyi və s. hər iki əsərdə eyniyyət təşkil edir. Sanki dramaturq öz "qəhrəmanının adı ilə adlandırdığı birinci əsərində Quluş bəylərin sifətlərinin tam açılmamasından nigaran qalmış və yeni bir əsər yazmağa ehtiyac duymuşdur. Bir cəhəti xüsusi qeyd etmək lazımdır ki, M.S.Ordubadinin istər mətbu, istərsə də çap olunmuş əlyazmaları şəklində saxlanılan çoxsaylı dram əsərləri müasirlik baxımından ədibin dövrü, zəmanənin ehtiyacları, daha çox "sifariş və tələb" faktı ilə bağlı olmuşdur. Şəriət ehkamlarının tənqidi, kolxoz kooperasiya məsələləri, qadın azadlığı, fəhlə-kəndli və s. mövzular M.S.Ordubadi kimi o illəri yaşayan, yazıb-yaradan sənətkarların, ümumən ədəbi-bədii mərhələ və proseslərin əsas-aparıcı mövzuları idi. Daha dəqiqi dövrün-zəmanənin sifarişi idi. M.S.Ordubadi də bu əsərində təkcə Quluş bəy deyil, həmçinin Tərlanların, Kəblə Hüseynəlilərin, Məşə Səbanların, Heybətquluların görünməyən iç üzlərini məharətlə açıb göstərmişdir.

Birinci pərdədə Quluş bəyin qızı Səmənin kolxozun hesabdarı – Musa ilə sevgi macəralarından bəhs olunur. Evin qulluqçusu Əmən Musanın Quluş bəygilə gəlməsini bildikdə Musa pəncərədən tullanaraq qaçır. Qulluqçu ilə Səmənin anası bu məsələni bəzəyərək güya evə oğru gəldiyini iddia edirlər. Quluş bəy isə bu məsələyə çox laqeyd münasibət bəsləyir: "Əhəmiyyət verməyin, ət qoxusu gələn evə pişik girər" (8, səh. 3). Quluş bəy sonadək özünü filosof kimi aparır. Bu sifət 2-ci Quluşbəyi 1-ci Quluşbəydən ayıran zahiri

* Əsgərov Bəxtiyar Hüseynalı oğlu – BDU-nun Müasir Azərbaycan ədəbiyyatı kafedrasının aspirantı.

əlamət kimi göstərilmişdir. “Mən pristav olduğum zamanda da filosof idim. Onda da bilirdim ki, həqiqət sandığının açarı qamçıdır” (8, səh. 6). Quluş bəyin çar isul-idarəsinə müsbət münasibəti əsərin ortasında azacıq dəyişsə də sonadək davam edir. Fotoqraf, yazıçı və rəssamın mülkədar Quluşbəyin evinə təşrif buyurması bu əsəri digərindən fərqləndirən məqamlardandır. Dramaturq bu üç obrazın vasitəsilə Quluş bəyin ailə sirlərinin, iç üzünün, xarakterinin öyrənilməsinə rəvac vermişdir. Özlərinin ailə söhbətlərini belə bu üç “sənətkarın” yanında bəyan etmələri Quluşbəyin birinci növbədə ailə faciəsindən xəbər verir. Quluş bəy hamıya bir çörək borcludur. Ona görə də o, şəkil çəkdirməkdən, müsahibə verməkdən boyun qaçırır. Quluş bəy öz həyat yoldaşı Tərlanla davranmaq onu öz itaətinə gətirmək imkanında deyil. Elə bunun nəticəsidir ki, Tərlan əksər hallarda öz ərini danlayır, ona etiraz edir. Quluş bəyin evinə gələn yazıçı da onun eqoist mövqeyi ilə rastlaşır. Əsərdə yazıçı obrazı, fikrimizcə, Ordubadinin özüdür. Onun davranışı, verdiyi suallar, malik olduğu bilgi bunu deməyə əsas verir. “Mən əsrimizin soltanbəyləri” adında gözəl roman yazıram” (8, səh. 28). Yazıçı Quluş bəyin ailə həyatını öyrənmək üçün gəldiyini bəyan edir. Və yazıçı ilə Quluş bəyin söhbəti rəssamın bəyi o tərəf bu tərəfə çevirərək şəklini çəkdiyi vaxtda baş tutur. Əksər vaxt Quluş bəy vaxtının olmamağından şikayətlənir. Bu səhnədə hər üç sənətkar Quluş bəylə dialoq təşkil edir. Yazıçı istədiyini aldıqdan sonra getmək ərəfəsində Quluş bəyin arvadı Tərlan və qızı Səmən hay-küy salaraq ailə sirlərinin yayılacağından qorxuya düşürlər.

Əsərin ikinci pərdəsi Quluş bəyin qızı Səmənin otağında başlayır. Səmən öz sevgilisi Musanı gözləyir. İntizar çəkir. Pəncərədən baxaraq Musanın eşqi ilə oxuyub-oynamağa başlayır:

Sevdiyim yardı mənim
Həsrətim vardı mənim
Gözlədim gəlmədi yar
Qalmadı səbri-qərar
İntizar dəmlərinin
Qəmi var, qüssəsi var (8, səh. 29)

Musa evdə ikən Quluş bəy gəlir və bu müddət ərzində Quluş bəy evə kiminsə gəlib getməyindən xəbər tutur (sevinə-sevinə) dona girərək:

Daş doğulaydın, ay qız, sən nə dəcəl qız oldun?
Bax nə utanmaz oldun, bax nə həyasız oldun.
Yaxşı nişanlı tapdın, elçi hara, sən hara
Bir de görüm o kimdir, ay üzün olsun qara! (8, səh. 37)

Bu sözlərlə, əslində Quluş bəy qızını öz istədiyi kimi ərə verməyə – pulla satmağa hazırlamağının başlanğıcını qoyur. Quluş bəy qızını gözü gördüyünə deyil, ağlı gördüyünə getməyi məsləhət görür. Bu zaman hesabdar Musa əlində pendir payı içəri daxil olur. Onun dalınca öz borcunu istəmək üçün Məşə Səban Quluşgilə gəlir.

Borcları yadına düşən Quluş bəy yenə də dəm verir fəlsəfəyə: Borcunu istəyən Məşə Səban "Orda saxla, nahar qarına nə fəlsəfə" – deyə Quluş bəyə acıqlanır. Quluş bəy isə çıxılmaz vəziyyətə düşdüyünü anlayıb öz qızı Səməni ona verməyi təklif edir. Bu böyük təklif qarşısında çaşıb qalan Məşə Səban Quluş bəyin arvadı ilə qızını biri-birindən ayıra bilmir. Buna baxmayaraq Məşə Səban üstəlik Səmənin paltosunun tikilməsinə görə əlavə 1600 manat Quluşa pul verir.

Pərdə Quluş bəyin sözləri ilə tamamlanır:

Fəlsəfədə belə qanun vardır
Tez inanan tez də aldanar.

Bu pərdədə Məşə Səban obrazı Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" əsərindəki Məşədi İbad surəti ilə daha yaxından səsləşir. Quluşun arvadı ilə qızını ayıra bilməyən Məşə Səbana əsərdə xidmətçi Əmən belə deyir:

Evlənmisən cavan qıza
Qəlbin olsun həmişə şad
Adın bizim şəhərimizdə
Sən ikinci Məşdi İbad (8, səh. 89)

Üçüncü pərdədə əsərin siyasi motivi üzə çıxır. "Mən elə bir yumurtanın üstündə oturmuşdum ki... Artıq o yumurtaların cücələri çıxdı. O cücələr siyasi hadisələrdir. O yumurtaların içindən sizin xanımlığınız, mənim ağalığım və bir çoxunun hökmüranlığı doğdu" (8, səh. 586). Quluş bəyin Məşədi Səban, Kəblə Hüseynəli və s. ilə münasibətlərinin sonu yenə də Quluşun pul borc almaq istəyi ilə yekunlaşır. Nəticədə Quluşun arvadı və qızının üstündə bu şəxslər biri-birlərini təhqir edir, dalaşırlar.

Heybətqulu Quluşun arvadını almaq eşqinə düşür. Dördüncü pərdədə isə Musa ilə Məşə Səban qarşılaşır, daha sonra digər dəllallar məsələdən agah olurlar. Xidmətçi Əməni Səməndən seçə bilməyən dəllalların Zaks şöbəsində qarşılaşmaları da maraqlıdır. Diribaş Musa əvvəlcə evləndiyi Əməni Qasıma verməklə, Məşə Səbanı başqa bir dulla evləndirməklə öz yolunu açır. Özü isə Səmənlə ailə qurur. Beşinci pərdədə hadisələr rayon daxili işlər idarəsində vaqe olur. Fotoqraf, rəssam və yazıçını tutub Quluş bəyin yanına gətirirlər. Bu qarşılaşmada Quluş bəy yenidən öz dili ilə ifşa edilir. Quluş ailəsinin bəzi məsələlərindən də agah olur. Musa ilə qızının evlənmək günahını Zaks şöbəsinin müdirində görən Quluş bəyə nəhayət aydın olur ki, sən demə 22 ildir camaat kəbinsiz, qeyri-qanuni, sadəcə qeydiyyatla evlənirmiş.

Pyesdə M.S.Ordubadi tipi öz dili ilə ifşa etmək, obrazların bir-birinə münasibətində yeni məqamları meydana çıxarmaq, mənfi obrazlar, maraqlı hadisələr içərisində səciyyənamə vermək məqsədilə bütün surətləri qarşılaşdırmaq, rolsuz iştirak edən şəxsləri də əsərin ideyası ilə bağlamağa çalışmışdır, iki nəfər zabit, bir nəfər

NKVD işçisi, köhnə tacirlər, bəylər və s. hər biri pyesdə özünəməxsus vəzifə daşıyır.

M.S.Ordubadi istər “Quluş bəy Kazımiç”, istərsə də, “İntizar çəkənlər” komediyalarında süjet xətti boyu qadın məsələsinə də toxunmuş və özünəməxsus bir formada ona öz münasibətini bildirmişdir. Dramaturqun hər iki pyesində müasir mövzu, onların həlli, irəli sürülən fikirlər öz kökləri ilə ədibin dünyagörüşü ilə bağlıdır. İkinci tərəfdən hər iki pyes oxucunun istədiyi şəkildə, mənfiliklərin ifşası ilə tamamlanır. Ədibin digər əsərlərində olduğu kimi bu pyeslərdə həqiqi müsbət obrazlara rast gəlmirik. Bu əsərlərində gedən mənfi proseslərə qarşı dramaturq öz mövqeyini bildirmiş, dünyagörüşünü, düşüncəsini, maarifçi-realist görüşlərini müsbət obraz kimi ifadə etmişdir. Bunlarla yanaşı bu pyeslərdə istər ad, istər xarakter eyniliyi daşıyan obrazlar vardır. Əsas məsələ ondan ibarətdir ki, dramaturqun yeniliyin köhnəliyə qalib gəlməsi üçün əsas, aparıcı obrazları qadınlardır və onlar hadisələrin mərkəzində dayanmaqda o qədər də fəal deyillər. Lakin mənfiliklərin açılıb göstərilməsində qadın obrazlarından, onların hərəkətlərindən yetərincə istifadə olunmuşdur. Tənqidi gülüşün inkişafında həlledici rol oynayan bu obrazlar öz hərəkətləri ilə qeyri-sağlam şəraitə qarşı çıxır, qadının cəmiyyətdə tutduğu mövqeyini müəyyənləşdirməyə – fəal üzv olmaq, sağlam ailə qanunlarını müdafiə etmək, ailə-əxlaq, valideyn-övlad münasibətini yeniləşdirməyə xidmət etmək istiqamətində çıxış edirlər. Onu da qeyd etmək lazımdır ki, haqqında danışdığımız bu əsərlərdə dil, üslub və kompozisiya cəhətdən də yaxınlıq hiss olunur. Dramaturqun “Quluş bəy Kazımiç” əsərində sadə, bəsit üslubu, dili, dramaturji sənətkarlığı inkişaf edərək öz bədii yüksəlişini “İntizar çəkənlər” komediyasında tapır. Bu komediyaların dahi bəstəkar Üzeyir Hacıbəyovun “O olmasın, bu olsun” əsərinə təsiri ilə yazılması deyilənləri sübut edir.

Bütün komediyalarda olduğu kimi, M.S.Ordubadinin bu pyeslərində komik obrazları təyin edən cəhət onların düşdüyü vəziyyət və o vəziyyətdə özlərini necə aparmalarıdır. Quluş bəy, Tərlan xanım, Məşə Səban, Kəblə Hüseynəli, Heybətqulu və s. o zaman gülüş obyektinə çevrilir ki, onlar müasir normaların, müasir cəmiyyətin əleyhinə gedirlər.

“Mərcan bəy, Kərbəlayi Qubad, Məşədi İbad o zaman gülüş doğurur ki, onlar ictimai inkişafın inkar etdiyi qeyri-normal hadisələrlə üzləşir. Çürük əxlaq normalarının müdafiəsinə qalxır, həyat sınağında çoxdan inkar edilən arzu və məqsəd uğrunda mübarizə edirlər. Cəmiyyətdə öz çürük təsəvvürləri ucundan çox şey itirən, köhnə baxışlar uğrunda mübarizə etmək hüququ olmayan belə adamlar mübarizə tədbirləri, zahiri hərəkət və danışıqları ilə komik vəziyyətə düşür. Bu əlamətlərin kompleksi, məcmusu komik xarakter yaradır” (9, səh. 158).

M.S.Ordubadinin bu əsərləri yazarkən Azərbaycan ədəbiyyatının klassik nümunələrindən hesab olunan “Məşədi İbad” komediyasından təsirlənməsi onu bir dramaturq kimi möhkəmləndirmişdir.

Zəmanəsinin tələbi, xalqın ehtiyacı ilə dramaturgiya aləminə gələn sənətkar hələ ilk dramatik səhnəciklərindən başlayaraq xalqın həyatı, məişəti, adət və ənənələrini dərindən öyrənməyə ciddi səy göstərmiş, tədricən güclü tənqidi mühakiməyə, yüksək sənətkarlığa yiyələnərək "Quluş bəy Kazımiç" və "İntizar çəkənlər" komediyalarını yaratmışdır. Mülkədar, bəy, dəllal kimi ictimai təbəqələrin vəziyyətlərini, XX əsr Azərbaycan ailəsinin həyatını ictimai münasibətlər içərisində, tipik şəraitlə bağlı əks etdirən bu komediyalar, Azərbaycan dramaturgiyasına əbədi həyat hüququ qazanan əsərlər kimi daxil olmuşdur.

"Komediyada həyatdakı gülünc və eybəcər cəhətlər, insan xarakterindəki gülməli xüsusiyyətlər qeyri-sağlam ictimai məişət fonunda təsvir və ifşa olunur. Dramaturq komediyanın konfliktini tipik həyat hadisələrinə uyğun elə məharətlə qurur ki, burada həyatın eybəcərlikləri sadəcə olaraq qarışıq hadisələrin tədricən inkişafı və açılması yolu, mənfi obrazların düşdüyü vəziyyətdən, onların özlərini qeyri-normal aparmalarından, bir sözlə, köhnə təsəvvürlərlə həyatın sağlam qanunları arasındakı ziddiyyətdən yaranır" (9, səh. 159).

Bu baxımdan "Quluş bəy" və "İntizar çəkənlər" sırf müasir xarakterlər komediyasıdır. Oxucu və tamaşaçı burada həyatın çox ciddi mənfiliklərini görür, onlara gülür və nifrət edir. Komediyalarında dramaturqun bir də məharəti ondadır ki, o, komik hadisələr fonunda həyatın ciddi dramatik vəziyyətinə, faciəli cəhətlərinə də diqqəti cəlb edə bilmişdir. Məşə Səbanların, Heybətqululların, Quluşları və bir çox "səlahiyyət sahibləri"nin özbaşınalığı, sərbəstliyinə imkan yaradan, öz hüquqlarını bilməyən insanların aldanmasını təmin edən şərait məhz komik vəziyyət və hadisələr altında görünən faciədir. Məşə Səbanlar məqsədli sələmçi tacir sinfinin yeni xarakter cəhətlərini daha aydın göstərən obrazlardır.

Bu da faktdır ki, həm inqilabdan əvvəl, həm də inqilabdan sonra A.F.Axundovun dramaturgiya ənənələri, onun əsərlərinə xas olan həyatilik və müasirlik pafosu, dərin ideyalılıq, dövrün ziddiyyətlərinə – mənfiliklərinə qarşı barışmaz müxalifətçilik Azərbaycan dramaturgiyasına ciddi təsir göstərmişdir. Axundov dram məktəbinin layiqli və sədaqətli davamçıları; N.Vəzirov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, N.Nərimanov, Ü.Hacıbəyov və H.Cavid kimi M.S.Ordubadi də klassik dram ənənələrini qoruyub saxlamışdır.

Bir sözlə, M.S.Ordubadi bütün yaradıcılığında, xüsusilə bu komediyalarında M.F.Axundovdan başlayan tarixi realist ənənəni sadəcə davam etdirməmişdir. O, bu tarixi ənənəni dövrün tələblərinə uyğun, həm də yaradıcı şəkildə inkişaf etdirmişdir.

## ƏDƏBİYYAT


1. RƏF-14, Arx-16 s.v. 127, №1-5 (2) (14203).
2. Hacıbəyov Ü. Əsərləri. 10 cilddə, I cild. Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1964. 395 səh.
3. RƏF-14, Arx-15 Q-188, s.v. 60 (530) (14691).

4. Zamanov A. “M.S. Ordubadinin naməlum bir pyesi” “Ədəbiyyat və incəsənət” qəzeti, 31 iyul 1954 №281 (1254).
5. RƏF-14, Arx-16 Q-30, s.v. 183 (290) (14494).
6. Cəfərov M.C. Sənət yollarında. “Gənclik” nəşriyyatı, Bakı, 1975. 368 səh.
7. RƏF-14, Arx-16 N-Q-57, s.v. 162 (492).
8. RƏF-14, Arx-16 F-3 (9) (14190).
9. Abasov A. Əbədiyyətə qovuşan sənətkar. “Yazıçı” nəşriyyatı. Bakı 1985. 248 səh.

## НЕОПУБЛИКОВАННЫЕ ДРАМЫ М.С.ОРДУБАДИ

Б.Г.АСКЕРОВ

### РЕЗЮМЕ

В статье представлен всесторонний анализ неопубликованных драм М.С.Ордубади, а также их краткое содержание.